# 40 il sənətdə



**Respublikamızın tanınmış rəssamlarından biri, təsviri sənətimizi Azərbaycan və xarici ölkələrdə müvəffəqiyyətlə təbliğ edən, 1974-cü ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü Vaqif Osman oğlu Nəzirov Qazax rayonunda anadan olmuşdur.**

Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbini və Tiflis Dövlət Rəssamlıq Akademiyasını bitirmişdir. 1968-ci ildən Sumqayıt şəhərinin baş rəssamıdır.

Bu illər ərzində özünün təkrarsız əsərləri ilə şəhərin gözəlliyinə əlavə rəng qatmışdır . V.Nəzirov Sumqayıt şəhərinin sənaye və yaşıllığı ilə seçilən şəhərlərdən olmasını əks etdirən atributu-nu-gerbini tərtib etmişdir.

Sülh küçəsinin parka daxil olan hissəsində şəhərin yaraşığı, respublika daxilində və xaricində embleme çevrilən monumental-dekorotiv "Sülh Göyərcini" heykəli ucaldılmışdır.

Nəsimi adına mədəniyyət və istirahət parkının əsas girişində böyük şairin heykəli qoyulmuşdur. "Şəhidlər Xiyabanı" qarşısında simvolik olaraq səkkiz guşəli ulduzlar yerə enən təsvirdə həll olunmuşdur. "Ulduzlar" abidəsi rəssamın şəhid ruhuna ehtiramının carçısı,vətənpərvərlik nişanəsidir.

Heydər Əliyevə həsr olunmuş "Ey Vətən" əsərinə tamaşa etdikcə bütöv Azərbaycanın tarixi salnaməsini vərəqləmiş oluruq. Bu salnamənin ən parlaq səhifələrinin müəllifi kimi Heydər Əliyevin təsviri qabarıq şəkildə diqqəti cəlb edir. Onun ideyalarının təmsilçilərindən biri kimi Mehriban Əliyevaya ithaf olunmuş digər rəngkarlıq nümunəsi öz orijinallığı ilə seçilir. Rənglər dünyasının ən parlaq nümunələrini özündə birləşdirən bu əsərdə Azərbaycanın birinci xanımı milli mədəniyyətimizi dəyərləndirən, onun inkişafı naminə mühüm addımlar atan bir şəxs kimi diqqət mərkəzindədir.

Milli musiqimizin əvəzolunmaz simaları, səslərinin qüdrəti ilə dünyanı dolaşan Rəşid Behbudov və Müslüm Maqomayevə həsr olunmuş "Bəşəri ulduz" əsərlərini rəssam təxəyyülünün uca zirvəsi adlandırsaq yerinə düşər.

V.Nəzirovun iki əsərini ulu öndərimiz Heydər Əliyev bəyənmiş və bu layihələri həyata keçirməyi tövsiyə etmişdir. Onlardan biri Sumqayıt şəhərinin ilk qurucularına həsr olunmuş, ikincisi isə Sumqayıt şəhəri haqqında nəsildən-nəsilə keçən "Əfsanə"dir. Yaxın vaxtlarda şəhər sakinləri bir möcüzənin də şahidi olacaqlar.

İki gəncin Sum və Ceyranın sevgi tarixçəsindən doğulan "Sumqayıt əfsanəsi" daşlara köçürülərək rəssamın gözəl sənət nümunəsi tək şəhərin 3-cü rəmzi kimi tarixə düşəcəkdir...